# İnamdan İnama

**Bəxtiyar Vahabzadə**

İnamım - o gözə görünməzlərə
Əvvəlcə atamdan, anamdan gəlir
Əl açdım göylərə, baş vurdum yerə
İmanın özü də inamdan gəlir.

İnamım olsa da duydum fəhmdən
Könül başqa səmtə səsləyir məni.
Gördüm ki, özümlə savaşdayam mən
İçimdə nəfs adlı qurd yeyir məni.

O şeytan qurduna qələbə çalmaq
Anladım, mənimçün mərama dönmüş
Savaş uzun çəkdi, gördüm ki, ancaq
Günüm, güzəranım harama dönmüş.

Qərəskar olmasaq heç kimə qarşı
Çevirə bilərik dosta düşməni
Anladım: inamım nəfsimə qarşı
Ən böyük cihada[1] çağırır məni.

Getdim bu çağrışın arxasınca mən
Yolum sirr, itgim sirr, qazancım da sirr.
Amansız həmlələr… Bu çək-çevirdən
Necə çıxdığımı bir Allah bilir.

Duz yeyib yatanlar nə dağ, nə dərə,
Röyada su görər, təşnədir suya
Allah sevgisiylə yanan kəslərə
Allah göstərir gördüyü röya.

Yollar ayrıcında durub çox zaman
Hansıyla getməyim suala dönür.

---

[1] Peyğəmbər müşriqlərə qarşı cihaddan zəfərlə qayıdandan sonra əsabələrinə “kiçik cihaddan qurtardıq. Bundan sonra nəfsimizə qarşı ən böyük cihada başlamalıyıq” – demişdir.

Atdığım o yalnış addımlarımdan
Həyat mənim üçün zavala dönür.

Savaşan kimlərdi?.. Bildim çox gözəl
Dərk edən ağılla duyan ürəkdir.
Məzar gömrüyündə bizdən ən əvvəl
İman vəsiqəsi istənəcəkdir.

Çoxdur günahlarım, bilirəm bunu
Tövbədə bitməli günahın sonu
O zaman əllərim açılır göyə
Allah, vəsiqəmi qəbul et - deyə.

Noyabr, 2002

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004